| | |
|---|---|
| **AKTIN NÖVÜ** | Mərkəzi bankın qərarı |
| **QƏBUL EDİLDİYİ TARİX** | 28.12.2022 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 60/5 |
| **ADI** | Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2022-ci il 04 fevral tarixli 04/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari sığorta növlərinin aparılmasına icazə verilməsi üçün Əlavə Tələblər"də dəyişikliklər edilməsi barədə |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 11.01.2023 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 090.050.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 23202212280605 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 10.01.2023 |

**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin**

**QƏRARI**

**60/5**

**Bakı şəhəri** **28 dekabr 2022-ci il**

**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2022-ci il 04 fevral tarixli 04/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari sığorta növlərinin aparılmasına icazə verilməsi üçün Əlavə Tələblər"də dəyişikliklər edilməsi barədə**

"Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 22.0.17-ci maddəsinə əsasən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2022-ci il 04 fevral tarixli 04/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari sığorta növlərinin aparılmasına icazə verilməsi üçün Əlavə Tələblər"də dəyişiklik təsdiq edilsin (əlavə olunur).
2. Hüquq departamentinə (Rəna Məlikova) tapşırılsın ki, bu Qərarın 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**

"Təsdiq edilmişdir"
Azərbaycan Respublikasının
Mərkəzi Bankı
Qərar 60/5

28 dekabr 2022-ci il

**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2022-ci il 04 fevral tarixli 04/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari sığorta növlərinin aparılmasına icazə verilməsi üçün Əlavə Tələblər"də dəyişikliklər**

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 2022-ci il 04 fevral tarixli 04/1 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari sığorta növlərinin aparılmasına icazə verilməsi üçün Əlavə Tələblər"də aşağıdakı dəyişikliklər edilsin:

aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"**4-1. Rəsmi internet səhifəsi ilə bağlı tələb**

Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası növünün aparılmasına icazə verilməsi üçün sığortaçı sığortalılarla müvafiq icbari sığorta müqaviləsinin öz rəsmi internet səhifəsi vasitəsilə Qanunun 8.1-ci maddəsinə uyğun olaraq bağlanması imkanına malik olmalıdır.";

aşağıdakı məzmunda 5.3-cü bənd əlavə edilsin:

"5.3. Tələblərin 4-1-ci hissəsinin qüvvəyə mindiyi günə avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası növünün aparılmasına icazəsi olan sığortaçılar öz rəsmi internet səhifəsinin texniki imkanlarını 10 (on) gün müddətində Tələblərin 4-1-ci hissəsinə uyğunlaşdırmalıdırlar.".